*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 422-428*

# *ƏDƏBİYYATŞÜNASLIQ*

https://doi.org/10.62837/2024.6.422

**ÇİNARƏ YAŞAR QIZI ƏHMƏDOVA**
***AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun***
***" Albanşünaslıq " Elmi Mərkəzinin "Qafqaz Albaniyasının maddi-mədəni irsinin arxeoloji tədqiqi" sektorunun kiçik elmi işçisi***
**xelilzade.cinare@mail.ru**

## DƏMİRÇİ (ŞAMAXI RAYONU) NEKROPOLUNUN SAXSI MƏMULATI

**Açar sözlər***:* saxsı, qəbir, nekropol, daş qutu, abidə
**Ключевые слова***:* глиняная посуда, могила, некрополь, каменный ящик
**Keywords***:* faience, grave, necropolis, stone box, monument

Azərbaycanın arxeoloji xəritəsinə əlavə olunan abidələrdən biri - daş qutu qəbirlərdən ibarət Dəmirçi nekropolu Şamaxı şəhərindən 35 kilometr şimali-qərbdə, dəniz səviyyəsindən təqribən 1800 metr yüksəklikdə, Dəmirçi kəndinə məxsus yaylaqda aşkar olunmuşdur. Məlum olduğu kimi, üç hektara yaxın sahəsi olan bu abidə 2015-ci ilin ortalarında Şamaxı-Dəmirçi-Lahıc yolunun çəkilişi zamanı təsadüfən üzə çıxmışdır. O zaman Şamaxı rayon rəhbərliyinin müraciəti əsasında AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları abidəyə baxış keçirmiş və oradan bir ədəd üzük tapmışlar. Bundan sonra isə SOCAR və Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi, MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşkilatçılığı ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Dəmirçi arxeoloji ekspedisiyası orada tədqiqat axtarışları aparmışdır. Belə ki, Şamaxı-Dəmirçi-Lahıc yolunun sol kənarında uzunluğu 30 metr, eni 20 metr olan, cəmi 600 kvadratmetr sahə seçilmişdir. İlkin olaraq tədqiq ediləcək sahə şimal-cənub və şərq-qərb istiqamətində olan 2 metrlik yoxlama qazıntılara – şurflara bölünmüşdür. Məlumat üçün onu da bildirmək lazımdır ki, tədqiq olunan ərazi uzun illər ərzində yerli əhali tərəfindən taxıl və ya kartof əkini üçün istifadə olunmuşdur. Odur ki, ərazi hər dəfə ağır texnika ilə şumlanarkən daş qutu qəbirlərin üzərinə qoyulmuş iri sal daşların xeyli qismi ya sındırılmış, ya da yerindən tərpədilmişdir. Nəticədə, qəbir avadanlıqlarına xeyli ziyan dəymişdir.

Bu ekspedisiya tərəfindən Dəmirçi kəndi yaxınlığındakı ərazilərdə daş qutu qəbirlərdən ibarət daha bir neçə nekropol da aşkar olunaraq qeydiyyata alınmışdır. Öyrənilən sahədə daş qutu qəbirlərin ilkin nişanələrinə qazıntı yer səthindən 50 santimetr dərinliyə çatdıqda rast gəlinib. Dərinlik 90 santimetr olanda qazıntının

bütün kvadratlarında daş qutu qəbirlər üzə çıxdı. Onların ümumi sayı 28 ədəddir. Qəbirlərin 18 ədədinin üstü açılaraq tədqiq olunmuşdur [4].

Dəmirçi (Gəgəli) nekropolunun ilk tədqiqi 2016-cı ildən başlanılmışdır. Qeyd etmək lazımdır ki, nekropolun aşkar edilməsində 2010-cu ildən t.ü.f.d. Akif Quliyevin rəhbərliyi ilə fəaliyyət göstərən Şamaxı-Ağsu ekspedisiyasının rolu böyük olmuşdur. Belə ki, ekspedisiya Şamaxı və onun ətrafının antik və orta əsr abidələrinin tədqiqi məqsədi ilə yaradılmışdır. 2016-cı ildə kəşfiyyat işləri zamanı 10 daş qutu qəbir müəyyən edilmişdir. Aşkar olunan qəbirlərdən 4-ü yol çəkilişi zamanı qismən və tamamilə dağılmış, 6 qəbir isə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilərək tədqiq edilmişdir. Bütün bunlarla yanaşı 2017-ci ildə aparılan arxeoloji qazıntılar zamanı daha 18 qəbir aşkar edilmişdir.

Aparılan qazıntılar zamanı əldə edilən nümunələrdən görmək olar ki, Dəmirçi (Gəgəli) nekropolu Son Antik və İlk Orta əsrlərə (b.e.I-IV əsrlərə) aid olduğunu ehtimal edilir.

Onu da qeyd etmək istərdim ki, arxeoloji tədqiqatlar nəticəsində müxtəlif növ qəbir tipləri aşkar olunub. Məsələn, alban dövrünə aid abidələrdə ölülərin küp, təknə, sadə torpaq, katakomba və daş qutu qəbirlərdə dəfn olunduğu müəyyən edilmişdir.Diqqəti cəlb edən məqamlardan biri də budur ki, daş qutu qəbirlər hələlik əsasən dağlıq, dağətəyi və yamac yerlərdə qeydə alınıb. Xatırlatmaq lazımdır ki, Azərbaycan ərazisində Antik və Erkən orta əsrlərə aid daş qutu qəbirlər professor Cabbar Xəlilov tərəfindən XX əsrin 50-60-cı illərində Xınıslıda (Şamaxı rayonu) geniş miqyasda tədqiq olunmuşdur. Deyilənlərə onu da əlavə olaraq demək olar ki, Azərbaycan ərazisində daş qutu qəbirlər hələ Tunc dövründən məlumdur.

Məhz 2017-ci ildə tədqiqat işləri Dəmirçi nekropolunun şərq hissəsində, Şamaxı-Dəmirçi-Lahıc yolunun sağ hissəsində aparılmışdır. Burada hər biri 100 $m^2$ (10x10) olmaqla 4 qazıntı sahəsi tədqiq edilmişdir.

Dəmirçi nekropolundan arxeoloji tədqiqatlar zamanı çoxlu sayda saxsı məmulatı nümunələri aşkar edilmişdir. 1a. kvadratında aparılan qazıntı işləri zamanı şərq qapısından ocağ yeri və orta ölçülü, iki qulplu saxsı qazan aşkar edilmişdir. Qazan uzun müddət istifadə edildiyinə görə alt hissəsi yanmış və üzəri qara his və kül təbəqəsi ilə örtülmüşdür.

Qəbirləri nəzərdən keçirək: Belə ki, 1 saylı qəbir 2 və ya 3 aylıq uşağa məxsus idi. Skeletin yanında kiçik ölçülü xeyrə tipli qab qoyulmuşdur. Qabın bir hissəsi sınıqdır.

2 saylı qəbir kamerasında olan skeletin sinəsinin qarşısında süddan tipli qab, diz nahiyyəsinin qarşısında isə dopu formalı saxsı qab qoyulmuşdur. Qabların daxilindən heyvan və quş sümüklərinin fraqmentləri müəyyən edilmişdir. [2, s-9].

2018-ci ilin mart-aprel aylarında aparılan arxeoloji qazıntılar zamanı 1a. və 1b. qazıntı sahələrində, qala divarlarının bünövrəsi səviyyəsində, yerə basdırılmış 6 iri həcmli təsərrüfat küpü aşkar edilmişdir. Belə ki, bu küplərin ağzı yastı formalı, iri daşlarla örtülmüşdür. Küplərin demək olar ki, çoxsu bütöv şəkildədir və dağıntıya

məruz qalmamışdır. İçərilərində dənli bitki qalıqları da aşkar edilmişdir. Bu da onu deməyə əsas verir ki, burada anbar olmuş və bu anbardan qala qarnizonu uzun mühasirə zamanı istifadə etmişdir [3, s-3].

Həmçinin, 03 may – 03 iyun 2017-ci il tarixlərində, t.e.d. professor Qafar Cəbiyev tərəfindən aparılan ekspedisiyada aşkar edilən daş qutu qəbirlərdə alban dövrünə aid kifayət qədər zəngin və rəngarəng çeşidli maddi-mədəniyyət nümunələri qeydə alınmışdır. Tapıntılar içərisində keramika məmulatı sayca üstünlük təşkil edir. Onlar əsasən ağzı büzməli və ya lüləkli formada olan təkqulplu su qablarından ibarətdir. Bütün qabların qulpları gövdə ilə ağız hissəsinin kənarını birləşdirir. Su qablarının əksəriyyətinin qulplarının üzəri barmaq batıqları, habelə kəsmə və ya çərtmə naxışlarla bəzədilmişdir. Tək və ya çoxqulplu qazan və küpə tipli nümunələrə də tez-tez təsadüf olunur. Həmin nümunələrin bir qismi uzun müddət od üzərində qızdırıldığından divarları yanaraq qaralmışdır.

Tədqiq olunan daş qutu qəbirlərdə qeydə alınmış saxsı qablar dulus dəzgahından istifadə olunmadan, əllə hazırlanmışdır. Bu səbəbdən də onların səthində nahamarlıq və ümumi formasında assimmetriklik aydın hiss olunur. Diqqət çəkən məqamlardan biri də saxsı qabların tərkibində iri qum qatışığı olan məsaməli gildən hazırlanmasıdır. Onu da xatırladaq ki, Dəmirçi nekropolunda aşkar olunan saxsı qabların bir qismi elmi ədəbiyyatda Şirvan tipli qablar adı ilə bəlli olan qövsvari formalı asma qulpa malik olan nümunələrdən ibarətdir [1, 13-15].

Ekspedisiya tərəfindən öyrənilən daş qutu qəbirlərin hamısının içərisində skelet və kifayət qədər zəngin dəfn avadanlıqları qeydə alınıb. Qəbirlərdə müxtəlif cins və yaş kateqoriyalarına aid insanlar dəfn edilmişdir. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, öyrənilən qəbirlərdən üçündə qadın, altısında uşaq, səkkiz qəbirdə isə kişi dəfn olunub. Antropoloji tədqiqatların mühüm elmi nəticələrindən birisi də Dəmirçi nekropolunda dəfn olunmuş insanların hamısının müasir azərbaycanlıların ulu əcdadları olan "Kaspi" tipli insanlar olduğunun müəyyənləşdirilməsidir. Skeletlər sıx və ya zəif bükülü vəziyyətdə olmaqla sol və ya sağ böyrü üstə aşkar olunmuşdur. Daha dəqiq desək, kişilər başı şimal-şərq istiqamətində olmaqla sol böyrü üstə, qadınlar isə başı cənub-qərb istiqamətində olmaqla sağ böyrü üstə dəfn edilmişdir.

Tədqiq olunan qəbirlərin hamısının baş və ayaq tərəfləri iri lay daşlarla qapanmış, yan divarları çaydaşı və ya əhəngdaşı ilə hörülmüş, üstü isə iri sal daşlarla örtülmüşdür. Qəbirlərin üst örtüyü kimi istifadə olunmuş sal daşların xeyli qisminin uzunluğu 2 metr, eni 1,5 metr, qalınlığı 10-40 sm, ağırlığı isə 500-600 kq-dan daha artıqdır. İndiki halda 6-7 nəfər insanın çətinliklə yerindən tərpədə bildiyi bu cür kifayət qədər ağır və iri ölçülü daşların 1700-1750 il bundan öncə hansı üsullarla tədarükü və onların səliqə ilə qəbirlərin üstünə yerləşdirilməsi maraq doğurur. Maraqlıdır ki, qəbirüstü daşlardan birinin üzərində qazıma-cızma üsulu ilə qədim yazı nümunələrinə bənzər işarələr qeydə alınıb. Qəbirlərin kamerasını təmizləyərək öyrənmək üçün əvvəlcə onların üst örtüyü götürüldü. Təbiidir ki, son dərəcə ağır və iri olduğundan həmin daşları yerindən tərpətmək və kənara qoymaq çox çətinlik

törədirdi. Xüsusən də bir tərəfi sınaraq qəbirlərin içərisinə düşmüş daşları götürmək daha çətin idi.

Dəmirçi nekropolunda aşkar edilən saxsı məmulatlarını xüsusi təsnifat halında qeyd edə bilərik. Belə ki, 1 nömrəli qəbirdən iri tutumlu, şar gövdəli, ağzı novalçalı, kiçik həcmli maye qabları; 2 nömrəli qəbirdən ağzı novçalı, dar gövdəli su qabı; 3 nömrəli qəbirdən exonol tipli su qabı, saxsı piti qabı, kasa tipli saxsı qab, 5 nömrəli qəbirdən tək qulplu saxsı dopu, yastı oturacaqlı, şar gövdəli maye qab; 6 nömrəli qəbirdən ağzı lüləkli, çaynik tipli qablar; 8 nömrəli qəbirdən saxsı kasa tipli və təkqulplu, dopu tipli qablar; 10 nömrəli qəbirdən ağzı novçalı, saxsı maye qabı; 11 nömrəli qəbirdən hündür və ilcəkli qazan tipli qablar, dərin saxsı kasa; 12 nömrəli qəbirdən gül formalı saxsı su qabı; 13 nömrəli qəbirdən gili qaramtıl, ağzı novçalı maye qabı, dopu tipli qablar, tək qulplu çömlək tipli qablar; 15 nömrəli qəbirdən dörd qulplu qab, ağzı novçalı maye qabı;16 nömrəli qəbirdən hündür boğazlı, enli ağızlı saxsı qablar; 18 nömrəli qəbirdən saxsı kasa və su qab nümunələri aşkar edilmişdir [1, s-70-73].

Dəmirçi nekropolundan aşkar olunan bu qab nümunələri həmin dövrdə insanların təsərüfat həyatında saxsı məmulatlarının nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Saxsı qablar formalarına görə də bir-birindən fərqlənir. Belə ki, şar gövdəli, yastı oturacaqlı, gül formalı saxsı qablar göz oxşayır. Həmçinin, lülək sayına görə tək və cüt lüləkli olan qablara da rast gəlmək mümkündür. Diqqəti cəlb edən məqamlardan biri də qabların üzərində olan naxışlardır. Bu naxışlar əsasən dırnaq basmaqla çərtmə üsulu ilə alınmışdır. Boğaz formalarına görə enli və dar olan qablar xüsusi qeyd edilməlidir. Enli ağızlı, yastı oturacaqlı qablar qəbir materiallarının əksəriyyətini təşkil edir. Ağzının kənarında düyməcikləri olan saxsı qablara da çox rast gəlinir.

Xüsusi olaraq onu vurğulamaq istərdim ki, Dəmirçi nekropolundan aşkar olunan saxsı qablar lülək sayına görə də qruplara bölünür. Bir lüləkli, iki lüləkli, üç lüləkli və dörd lüləkli olan bu qablar fərqli qəbir kameralarından aşkar olunmuşdur. 8 nömrəli qəbirdən aşkar olunan kasa tipli saxsı qab gilinin rənginə görə digərlərindən fərqlənir. Belə ki, çəhrayı rəngli bu qab deformasiya olmuş və gilinin tərkibi qatışıqlıdır. Diqqəti cəlb edən qablardan biri də 15 nömrəli qəbirdən tapılmışdır. Burada tapılan dörd qulplu qabın qulplarından üçü eyni, biri isə iri halqa (nal) formasındadır. Tapılan üç qulplu qab nümunəsinin iki qulpu ilgəkvari, biri isə hündür və dairəvi formalıdır. Aşkar olunan saxsı qab nümunələri həm bütöv, həm də qırıq şəkildədir. Qabların əksəriyyətini maye qabları təşkil edir. Bu qablardan müxtəlif vasitələrin saxlanması üçün istifadə edilmişdir. Dərin, enli ağızlı kasa tipli qabların forması da fərqlənir. Naxışlanma üsuluna görə qablar həm çərtmə, həm basma, həm də deşdəkləmə növlərinə bölünür. Təsnifat növlərindən biri də enli ağızlı, enli boğazlı, lüləkli maye qablarıdır. Bu qabların əksəriyyəti basma üsulu ilə naxışlanmışdır.

Saxsı qabların digər təsnifat növü dopulardır. Dəmirçi nekropolundan əsasən kiçik tutumlu saxsı dopular aşkar edilmişdir. Gilinin rəngi əsasən qaramtıldır.

Çiyni ilə boğazını birləşdirən qulpunun yanları çərtmə naxış ilə bəzədilmişdir. Səthi nahamar olan qab nümunələrinə də tez tez rast gəlmək mümkündür. Bunlar əsasən kasa tipli saxsı qablardır. Gili qatışıqlı və səthi nahamar olan piti qabları da aşkar olunmuşdur. Bu qabların qulpları dairəvi ( nal) formasındadır. Lüləyi quş dimdiyinə bənzəyən şar gövdəli, hündür boğazlı, enli ağızlı maye su qabı da xüsusi diqqət çəkir. Belə ki, bu qabı digərlərlərindən fərqləndirən xüsusiyyətlər vardır. Qabın qalın çubuqvari qulpu ağzının altı ilə gövdəsini birləşdirir. Lüləyinin üstündə sonsuzluq işarəsi vardır.

Tiplərinə görə ən çox aşkar edilən saxsı qab nümunəsindən biri də küpə (qazan) tipli qablardır. Bu qabların gilin tərkibi qum qatışıqlıdır. Ağzının kənarı gül formasında olan saxsı qabların bəzilərinin qulpları çubuqvaridir.

Ən maraqlı tapıntılardan biri də exonol tipli qablardır. Bu saxsı su qablarının ağzının kənarı büzməlidir. Qabın qulpunun üzəri çoxsaylı barmaq batıqları ilə bəzədilmişdir. Qabın novçasının hər iki tərəfində və qulpunun üstündə düyməcik var [1, s-90].

Dəmirçi nekropolun aşkarlanan nümunələr əsasən təkqulplu, lüləkli, enli ağız, qısa boğazlı və  xaşal gövdəli olan maye, kasa qablardır. Qulplu qablardan biri digərlərindən fərqli olan nümunədir ki, daha çox Şirvan dulusçuluğuna xas olan üç qulplu qabdır.

Saxsı məmulatlarının digər tapılan növü də xeyrə tipli qablardır. Bu qabların əksər hissəsi qırıq halda aşkar edilmişdir.

Bütün bunlarla yanaşı qəbir avadanlıqları içərisində dəmir, bıçaq, qılınc və xəncərlər, şüşə, parça və dəri nümunələri, gümüş sikkələr, möhür-üzüklər, bilərziklər, asma bəzəklər, toqqalar, düymələr, müxtəlif fiqurlar, rəngarəng çeşidli muncuqlar, dəmir qılınc və xəncərlər, bıçaqlar və çoxsaylı digər bəzək əşyaları da vardır.

Abidədən tapılmış qızıl məmulatı saxlanmaq məqsədi ilə Milli Azərbaycan Tarixi Muzeyinə, parça məmulatı isə tədqiq və mühafizə üçün Azərbaycan Xalça Muzeyinə təhvil verilmişdir. Digər metal nümunələr və bəzək əşyaları laboratoriya şəraitində təmizlənərək öyrənilməsi məqsədilə Milli  cəhətdən daha müfəssəl öyrənilmək məqsədilə Arxeologiya və Etnoqrafiya İnstitutunun müvafiq laboratoriyasına təhvil verilmişdir.

Nəticədə onu qeyd etmək istərdim ki, Gəgəli yaylağı yaşayış yerində aparılan arxeoloji tədqiqatlar zamanı əldə edilmiş maddi mədəniyyət nümunələri, qala divarları, anbar və evlərin qalıqları onu sübut edir ki, bura uzun müddət insanların sığınacaq yeri olmuşdur. Məhz buranın strateji bir nöqtədə, karvan yolunun üstündə yerləşməsi hərşeyi göz qabağına sərir.

Son illər Azərbaycan dövləti və Heydər Əliyev Fondunun diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi-mədəni dəyərlərin qorunması, konservasiyası və təbliği istiqamətində dünyanın bir çox ölkələri tərəfindən nümunə kimi dəyərləndirilən və öyrənilən çox mühüm işlər görülməkdədir. Bunun nəticəsidir ki, 26 avqust 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev və Birinci

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 422-428*
xanım Mehriban Əliyeva Şamaxı-Dəmirçi-Lahıc yolu üzərində yerləşən Dəmirçi Arxeoloji muzeyinin açılışını etmiş, muzeylə yaxından tanış olmuşlar. Muzey iki ekspozisiya salonundan ibarətdir. Birinci salonda Dəmirçi nekropolunda aşkar edilmiş 9 daş qutu qəbir və bir küp qəbir sərgilənir. Son Antik və İlk Orta əsrlər dövrünə aid qəbirlərin içərisində insan skeletləri və maddi mədəniyyət nümunələri – müxtəlif ölçülü saxsı və gümüşdən hazırlanmış qablar, dəmir qılınclar , ox ucluqları, nizə başlıqları, bəzək əşyaları qoyulmuşdur. İkinci salonda Şamaxı və ətraf ərazilərdən aşkara çıxarılmış maddi mədəniyyət nümunələri – şirli və şirsiz qablar, mis və tunc qablar, silah və bəzək əşyaları, sikkələr, daşişləmə sənət nümunələri və s. sərgilənir [3, s-4].

Cənab İlham Əliyev Dəmirçi arxeoloji muzeyinin regionun turizm potensialının inkişafına böyük xeyir verəcəyini vurğulayaraq, Azərbaycanın digər regionlarında da bu tip muzeylərin tikilməsinin vacibliyini bildirmişdir.

Onu da vurğulamaq istərdim ki, Dəmirçi arxeoloji muzeyinin gələcəkdə ən mühüm turizm obyektlərindən birinə çevriləcəyinə əminəm. Çünki burada tapılan bütün arxeoloji nümunələr mühüm əhəmiyyətə malikdir.

**Çinarə Əhmədova Yaşar qızı**

**Dəmirçi(Şamaxı rayonu) nekropolunun saxsı məmulatı**

**XÜLASƏ**

Tariximizin bir sıra problemlərinin araşdırılması baxımından əhəmiyyətini nəzərə alaraq Dəmirçi nekropolunda və ətraf ərazidə arxeoloji tədqiqatlar daha geniş miqyasda davam etdirilməlidir. Bakı, Şabran və Şamaxı şəhərlərini Lahıcla birləşdirən qədim karvan yolunun üstündə olması və həmin yolun yenidən işlənməsi nəticəsində bölgənin aktiv turizm regionuna çevrilməsi perspektivini, habelə ərazinin relyef və iqlim şəraitini nəzərə almaqla Dəmirçi nekropolunun konservasiyası da məqsədəuyğun olardı.

**Чинара Ахмедова Яшар гьэь**

**Керамика некрополя Демирчи (Шамахинский район).**

**РЕЗЮМЕ**

Учитывая его значение с точки зрения исследования ряда проблем нашей истории, археологические исследования на территории Демирчинского некрополя и его окрестностей должны быть продолжены в более широком масштабе. Сохранение Демирчинского некрополя было бы целесообразным, учитывая тот факт, что он находится на древней караванной дороге, соединяющей города Баку, Шабран и Шамахы с Лагичем, и перспективу

превращения региона в активный туристический регион в результате переустройства некрополя Демирчи. этой дороги, а также рельефа и климатических условий местности.

**Chinara Ahmedova Yasar qizi**

**Pottery of the necropolis of Demirchi (Shamakhi region).**

**Summary**

Taking into account its importance in terms of investigating a number of problems of our history, archaeological research in the Demirchi necropolis and the surrounding area should be continued on a larger scale. Conservation of the Demirchi necropolis would also be appropriate considering the fact that it is on the ancient caravan road connecting the cities of Baku, Shabran and Shamakhi with Lahic, and the perspective of the region becoming an active tourism region as a result of the redevelopment of that road, as well as the relief and climatic conditions of the area.

**Ədəbiyyat siyahısı**

1.Qafar Cəfər oğlu Cəbiyev, Elmira İdris qızı Abbasova.Dəmirçi kəndindəki Gəgəli nekropolunda apardığı arxeoloji tədqiqatın hesabatı.Bakı.2017/2018.

2.A.Quliyev. Şamaxı-Ağsu arxeoloji ekspedisiyasının 2017-ci ildə apardığı arxeoloji tədqiqatların hesabatı.Bakı.2017

3.A.Quliyev. Şamaxı-Ağsu arxeoloji ekspedisiyasının 2018-ci ildə apardığı arxeoloji tədqiqatların hesabatı.Bakı.2018

4. https://www.elibrary.az/docs/QAZET/qzt2017_2318.htm

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: t.ü.f.d. Abbasova Elmira İdris qızı**
**tərəfindən çapa tövsiyə olunmuşdur**